SİZİN ÜÇÜN QƏZET
№23 (3221) 19 İyul / 2022-ci il
www.hurriyyet.az; / hurriyyet@mail.ru





# Vətən sevgisindən başlanan şəhidlik

**"Aprel və Tovuz döyüşləri qəhrəmanı, şəhid mayor, 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordenli Anar Novruzovun üçün ən böyük sevgi vətən sevgisi idi. Elə şəhidliyi də bundan başlandı."**



Bu fikirlər Masallı rayonunda A. Novruzovun şəhadətə yüksəlməyinin ikinci ildönümü mərasimdə səsləndi. Şəhidin məzarı önündə baş tutan, rayon rəsmilərin, şəhidin doğmaların, hərbçi yoldaşların, müharibə iştirakçıların, qəsəbə sakinlərin, ictimaiyyət və media nümayəndələrin qatıldığı tədbirdə Azərbaycanımızın azadlığı, istiqlaliyyəti və müstəqilliyi uğrunda canlarını qurban verən Vətən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olundu, şəhid zabitin məzarı üzərinə gül dəstələri qoyuldu.

Yazıçı-publisist Nurəddin Ədiloğlu şəhidin keçdiyi döyüş yolundan, hər iki döyüş zamanı göstərdiyi tarixi şücaətindən danışdı. Sonra söz Masallı Rayon İcra Hakimiyyəti başçısının müavini Adəm Məhərrəmova, millət vəkili Məşhur Məmmədovun köməkçisi Əli Nağıyeva, şəhidin hərbçi yoldaşı, ehtiyatda olan polkovnik-leytenant Elmir Hüseynova, Masallı Bioloji Təbabət Klinikasının direktoru Sevindik Becanlıya, "Kapitalbank"ın Masallı filialının müdiri İqbal Quliyevə, hərbçi-jurnalist Mahir Cavadlıya, "Cənub.az" xəbər portalının rəhbəri Zahir Əmənova, şair Məmməd Əvəzoğluya, QMİ-nin Masallı rayonu üzrə qazısı Rəşid Talıbova verildi. Natiqlər çıxış edib 44 günlük Qarabağ müharibəsində qazanılan Böyük Zəfərdən, Anar Novruzovun Aprel və Tovuz savaşında Vətəni canında əziz tutaraq onun yolunda son nəfəsə qədər qəhrəman tək döyüşüb şəhid olmasından söz açdılar, onun Vətən sevgisinin hər birimiz, xüsusilə gənclər üçün böyük fəxr və örnək olduğunu dedilər.

Şəhidin əmisi Bəyverdi Novruzov şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.

**Zəfər ORUCOĞLU,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**